# Prezident BMT kürsüsündən dünyanı birliyə çağırdı

**Prezident İlham Əliyev BMT tribunasından aktual məsələlərlə bağlı fikirlərini beynəlxalq ictimaiyyətin diqqətinə çatdırdı. Azərbaycan-Ermənistan sülh gündəliyinin müəllifi olan İlham Əliyev ali kürsüdən dünyanı ədalət, sülh naminə birgə səylərə, birliyə çağırdı.**



Sosial Tədqiqatlar Mərkəzinin əməkdaşı Aqşin Kərimov qəzetimizə açıqlamasında bildirib ki, Prezident İlham Əliyev BMT-nin 80-ci sessiyasında Azərbaycanın xarici siyasət və müdafiə strategiyası üzrə mexanizmlərinin işləkliyi barədə fikirlərini yeni dünya nizamı çərçivəsində beynəlxalq ictimaiyyətə çatdırdı. Azərbaycan torpaqlarının işğaldan azad edilməsi, bunun yaratdığı geosiyasi üstünlüklər, Zəngəzur dəhlizinə münasibətdə strateji əməkdaşlıq imkanlarının zənginləşdirilməsi ilə bağlı məsələlər Prezidentin çıxışının əsasını təşkil etdi. "Dövlət başçısı Ermənistan ilə müharibənin birbaşa nəticəsindən və Azərbaycanın resurslarının postmüharibə dövrünə uyğun prioritetləşdirilməsindən bəhs etdi. Azərbaycanın geosiyasi və strateji mexanizmlərindəki fundamental üstünlüklər səbəbindən təhlükəsizlik üzrə yeni əməkdaşlıq modelinə üstünlük verdiyini bəyan etdi. Bu, regional təhlükəsizliyin perimetri boyunca Azərbaycanın oynadığı rolun, beynəlxalq münasibətlər sisteminə müsbət təsirlərinin göstəricisidir", - deyə o bildirib.

Ekspert qeyd edib ki, Prezident İlham Əliyev beynəlxalq ictimaiyyəti Azərbaycan-Ermənistan sülh gündəmindəki müsbət əhvali-ruhiyyəyə strateji investisiya yatırmağa çağırıb. Bu, Bakı-İrəvan sülh proqramına, o cümlədən Vaşinqtonda paraflanmış sülh sənədinə qarşı regional təhlükəsizlik boşluqları yaratmağa cəhd edən qüvvələrə mənalı cavab idi. Həmin cavabın dərinləşmiş yanaşmaları Zəngəzur dəhlizinə (TRIPP) nisbətdə özünü göstərir. Prezident İlham Əliyev Zəngəzur dəhlizini (TRIPP) beynəlxalq nəqliyyat koridorlarının mühüm damarı kimi diqqət mərkəzində saxlayaraq, onu əməkdaşlıq platforması kimi xarakterizə etdi.

A.Kərimov vurğulayıb ki, bu, regional əməkdaşlıq və təhlükəsizlik üçün Azərbaycanın elan etdiyi strategiyanın Cənubi Qafqaz, Yaxın Şərq və Avropa məkanlarına münasibətdə təsir ölçülərinin miqyasını səciyyələndirir: "Prezident üçün beynəlxalq münasibətlər sistemində ədalətsiz və qeyri-müəyyən balanslaşdırma qəbuledilməzdir və o, bütün dövlətləri qarşılıqlı hörmətə səsləyir. Dövlət başçısının Xəzər dənizinin quruması ilə bağlı həyəcan təbili çalması da dənizlə əlaqədar prosesdəki siyasi-iqtisadi maraqlarla oynayan qüvvələrə qarşı mesajı ehtiva edirdi".

***Ə.QARDAŞXANOVA,***
***"Azərbaycan"***

Azərbaycan.- 2025.- 30 sentyabr (№209).- 6.